**Dosent və professor elmi adları barədə attestatların formasının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dosent və professor elmi adları barədə attestatların forması" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 4 noyabr 2019-cu il
435

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 4 noyabr tarixli 435 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**Dosent və professor elmi adları barədə attestatların forması**

1. Dosent və professor elmi adları barədə attestatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin 1.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra - Komissiya) tərəfindən elmi ad verilmiş şəxslərə həmin elmi adı təsdiq etmək məqsədilə verilir.

2. Dosent Attestatının təsviri:

2.1. attestat 195 mm x 285 mm ölçüdə mühafizə nişanlı kağızda çap olunur. Dosent Attestatı açıq mavi rənglidir;

2.2. attestatın ön tərəfinin sağ yuxarı hissəsində Azərbaycan Respublikasının Dövlət Gerbinin rəngli təsviri əks olunur və Azərbaycan Respublikasının Dövlət Gerbinin altında "AZƏRBAYCAN RESPUBLİKASI" sözləri, həmin sözlərin altında isə tünd qara rənglə "**DOSENT ATTESTATI**" sözləri yazılır;

2.3. attestatın digər tərəfinin sol və sağ yuxarı hissələrində Azərbaycan Respublikasının Dövlət Gerbinin rəngli təsviri əks olunur, solda Azərbaycan Respublikasının Dövlət Gerbinin altında "DOSENT ATTESTATI ELMİ AD HAQQINDA DÖVLƏT SƏNƏDİDİR" sözləri, həmin sözlərin altında isə attestatın seriyası və nömrəsi, sağ aşağı hissəsində "**DOSENT** ELMİ ADI VERİLMİŞDİR" sözləri yazılır və ondan aşağıda isə möhür yeri və attestatın verilməsinə məsul olan şəxslərin imzası üçün yer saxlanılır;

2.4. mətn dosent attestanın nümunəsində göstərilən formada yerləşdirilir (1 nömrəli əlavə);

2.5. attestat qalın örtüklü xüsusi cilddə yapışdırılmadan təqdim edilir. Cildin üz qabığının yuxarı hissəsində relyeflə Azərbaycan Respublikasının Dövlət Gerbi, aşağı hissəsində "DOSENT ATTESTATI" sözləri həkk olunur, cildin içərisində isə heç bir qeydiyyat aparılmır. Dosent attestatının cildi tünd göy rənglidir;

2.6. nömrələnmə Dosent Attestatı üçün "DS" (dosent) seriyası və beş rəqəmdən ibarət olmaqla, Komissiya tərəfindən ardıcıl olaraq verilir.

3. Professor Attestatının təsviri:

3.1. attestat 195 mm x 285 mm ölçüdə mühafizə nişanlı kağızda çap olunur. Professor attestatı açıq çəhrayı rənglidir;

3.2. attestatın ön tərəfinin sağ yuxarı hissəsində Azərbaycan Respublikasının Dövlət Gerbinin rəngli təsviri əks olunur, Azərbaycan Respublikasının Dövlət Gerbinin altında "AZƏRBAYCAN RESPUBLİKASI" sözləri, həmin sözlərin altında isə tünd qara rənglə "**PROFESSOR ATTESTATI**" sözləri yazılır;

3.3. attestatın digər tərəfinin sol və sağ yuxarı hissələrində Azərbaycan Respublikasının Dövlət Gerbinin rəngli təsviri əks olunur, solda Azərbaycan Respublikasının Dövlət Gerbinin altında "PROFESSOR ATTESTATI ELMİ AD HAQQINDA DÖVLƏT SƏNƏDİDİR" sözləri, həmin sözlərin altında isə attestatın seriyası və nömrəsi, sağ aşağı hissəsində "**PROFESSOR** ELMİ ADI VERİLMİŞDİR" sözləri yazılır və ondan aşağıda isə möhür yeri və attestatın verilməsinə məsul olan şəxslərin imzası üçün yer saxlanılır;

3.4. mətn Professor Attestatının nümunəsində göstərilən formada yerləşdirilir (2 nömrəli əlavə);

3.5. attestat qalın örtüklü xüsusi cilddə yapışdırılmadan təqdim edilir. Cildin üz qabığının yuxarı hissəsində relyeflə Azərbaycan Respublikasının Dövlət Gerbi, aşağı hissəsində "PROFESSOR ATTESTATI" sözləri həkk olunur, cildin içərisində isə heç bir qeydiyyat aparılmır. Professor attestatının cildi tünd qırmızı rənglidir;

3.6. nömrələnmə Professor Attestatı üçün "PR" (professor)seriyası və beş rəqəmdən ibarət olmaqla, Komissiya tərəfindən ardıcıl olaraq verilir.

4. Komissiya dosent və professor elmi adı barədə verdiyi attestatların uçotunu aparır.

5. Attestat Azərbaycan Respublikasının dövlət dilində tərtib edilir.

"Dosent və professor elmi adları
barədə attestatların forması"na
1 nömrəli əlavə

AZƏRBAYCAN RESPUBLİKASI

**DOSENT**
**ATTESTATI**

BAKI-_____
il

DOSENT ATTESTATI
ELMİ AD HAQQINDA
DÖVLƏT SƏNƏDİDİR

DS _______

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
_______________ TARİXLİ
QƏRARI İLƏ

_____________________________________________________
(adı, atasının adı, soyadı)

________________________________ FƏALİYYƏTƏ GÖRƏ
(elmi və ya elmi-pedaqoji)

___________________________________ ELM SAHƏSİNİN
(elm sahəsinin adı)

____________________________________ İXTİSASI ÜZRƏ
(ixtisasın şifri və adı)

**DOSENT**
ELMİ ADI VERİLMİŞDİR

SƏDR: _________ _________________
(imza) (adı, soyadı)

BAŞ ELMİ KATİB: _________ _________________
(imza) (adı, soyadı)

M.Y.

"Dosent və professor elmi adları
barədə attestatların forması"na
2 nömrəli əlavə

AZƏRBAYCAN RESPUBLİKASI

**PROFESSOR**
**ATTESTATI**

BAKI-_____
il

PROFESSOR ATTESTATI
ELMİ AD HAQQINDA
DÖVLƏT SƏNƏDİDİR

PR _______

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
_______________ TARİXLİ
QƏRARI İLƏ

____________________________________________________
(adı, atasının adı, soyadı)

______________________________ FƏALİYYƏTƏ GÖRƏ
(elmi və ya elmi-pedaqoji)

________________________________ ELM SAHƏSİNİN
(elm sahəsinin adı)

__________________________________ İXTİSASI ÜZRƏ
(ixtisasın şifri və adı)

**PROFESSOR**
ELMİ ADI VERİLMİŞDİR

SƏDR: _________ (imza) _________________ (adı, soyadı)

BAŞ ELMİ KATİB: _________ (imza) _________________ (adı, soyadı)

M.Y.